# Ermənilərin böyük yalanı və türklərə qarşı əsassız “Malta divanı”

**Başabəla toplum kimi həm uzaq, həm də yaxın keçmişdə xəyanətkar və qanlı izlər qoymuş ermənilər bais olduqları bəşəri faciələri pərdələmək və yeni çirkin niyyətlərinə meydan açmaq üçün daim tarixi həqiqətləri saxtalaşdırmağa çalışmışlar. Qonşu xalqlara qarşı uydurduqları yalan və böhtanları milli ideologiya səviyyəsinə qaldırmış erməni millətçiləri tarixi əsası olmayan “böyük Ermənistan xülyasını gerçəkləşdirmək üçün heç zaman olmamış “erməni soyqırımı” uydurmasını bir əsrdən artıqdır ki, davamlı olaraq körükləyirlər.**

Bu zaman onlar Osmanlı imperiyasına son qoymuş Qərbin “Xaç ittifaqı”nın bu dövlətin siyasi rəhbərliyi üzərində qurduğu məkrli və intiqam xarakterli “Malta prosesi”ni əldə bayrağa çevirmişlər. Hər il aprelin sonuncu ongünlüyündə ermənilərin dünyanı başına alan “soyqırım” fəryadı, belə məqamlarda deyildiyi kimi, ovunu həzm etdikdən sonra timsahın tökdüyü göz yaşlarına bənzəyir. Bəli, XX əsrdə soyqırım olmuşdur, lakin onu türklər deyil, ermənilər özləri Anadoluda və Qafqazda kütləvi surətdə türk-müsəlmanlara qarşı törətmişlər.

Erməni millətçilərinin fitnə-fəsadları ilə 1905–1906-cı illərdə azərbaycanlılara qarşı başladılan bu qanlı qətliamlar I Dünya müharibəsi zamanı, eyni zamanda, qardaş Türkiyəni də hədəfə almış və daha geniş miqyasda törədilmişdir. Türk-müsəlman əhalisini total soyqırımına və məhvedici deportasiyasiyaya məruz qoyduqları Qərbi Azərbaycanda özlərinə dövlət qurmuş ermənilər sonrakı dövrdə də bu siyasəti milli mövcudluq strategiyası kimi davam etdirərək, əsrin sonunda Azərbaycanın 20 faiz ərazisini işğal etmiş, 1 milyon soydaşımızı qaçqın-köçkünə çevirmiş, uşaqlı-qadınlı-qocalı on minlərlə insanı vəhşicəsinə öldürmüşlər. Budur “zavallı” ermənilərin timsahsayağı göz yaşları tökmələrinin arxasındakı həqiqət.

**Əslində, 1915-ci ildə Osmanlı imperiyasında ermənilərlə bağlı nə baş vermişdir? Malta məhkəməsi ilə bağlı əsl həqiqət nədir? Bu mövzuda “Böyük yalan və Malta məhkəməsinin həqiqətləri” adlı əhatəli araşdırma aparmış siyasi elmlər üzrə fəlsəfə doktoru, AMEA Elm Tarixi İnstitutunun elmi katibi, Azərbaycan Turizm və Menecment Universiteti beynəlxalq münasibətlər kafedrasının dosenti, politoloq Zaur Əliyev həmin sualların cavabında bildirir:**

–İlk olaraq türklərə qarşı Malta məhkəməsi qurmuş ingilislərin öz yazıçı və publisisti S.F.Dikson-Consonun 1916-cı ildə yazdığı “Ermənilər” kitabından aşağıdakı mülahizəni oxucuların diqqətinə çatdırmağı vacib bilirəm: “Qərb aləmində erməni məsələsini şişirtməyin başqa bir üzü vardır – o da hakimiyyət üçün yeni bir fürsətdir, ermənilərə üz vermiş ağır çətinliklərin və bunun faciələrə gətirib çıxara biləcəyinin günahı onları anlamadıqları işə təhrik edənlərin üzərinə düşür”.

Keçmişi unutmamaq nə dərəcədə zəruridirsə və tarixi hadisələri danmaq və saxtalaşdırmaq da o dərəcədə yolverilməzdir. Bu baxımdan uydurma “erməni soyqırımı” tarixi həqiqəti açıq-aşkar danmaq, uydurma, saxta mülahizələrlə, həyasız haray-həşirlərlə pərdələməyə çalışmaqdır. Tarix isə həmişə həqiqət axtaran insanlara olduğu kimi boy göstərir. Bu baxımdan erməni yalan və böhtanlarını cavablandırmaq üçün tarixi həqiqətlərin üzə çıxarılmasına, gizli arxiv sənədlərinin araşdırılmasına, görkəmli tarixçilərin və antik alimlərin fundamental əsərlərində göstərilən faktların dünya ictimaiyyətinə çatdırılmasına çox böyük ehtiyac vardır. Dünyaya özünü “məzlum xalq” kimi tanıtmağa çalışan ermənilər davamlı olaraq hər yerdə geniş təbliğat apararaq, uydurma “erməni soyqırımı”nın tanınmasına ciddi cəhd etmişlər və bu gün də bu yolda yorulmadan çalışırlar.

Bəs uydurma “erməni soyqırımı” məsələsi haradan yaranıb? Tarixdən məlumdur ki, “erməni məsələsi” Şərq məsələsinin tərkib hissəsi kimi meydana gəlmiş və böyük dövlətlər özlərinin işğalçı məqsədlərini həyata keçirmək üçün ondan bir vasitə kimi istifadə etmişlər. Şərq məsələsinin mahiyyəti isə Osmanlı imperiyasının torpaqlarının bölüşdürülməsindən, Türkiyənin bir dövlət kimi məhv edilməsindən, Türkiyənin torpaqları hesabına erməni bufer dövlətinin yaradılmasından ibarət idi. Həmin məsələ, eyni zamanda, Şərqə yiyələnmək uğrunda çar Rusiyası və Qərb dövlətləri arasında beynəlxalq münaqişələrin ifadəsi, Şərq xalqlarına qarşı işğalçılıq planlarının təzahürü idi.

Şərq siyasətinin həyata keçirilməsi üçün ermənilərdən istifadə edildi və Türkiyə ərazisində yaşayan ermənilər başlıca hədəf seçildi. I Dünya müharibəsi zamanı Antanta dövlətləri müharibədə Almaniyanın tərəfində çıxış edən Türkiyəyə təzyiq göstərməyə başladılar. Bu təzyiq getdikcə gücləndi, hətta 1914-cü il oktyabrın 29-da Rusiya Türkiyəyə müharibə elan etdi. Belə bir vaxtda Türkiyə ərazisində yaşayan ermənilər böyük bir ordu yaradıb Rusiyanın köməyi ilə silahlandılar və hər yerdə türkləri qırmağa başladılar.

Türkiyənin tanınmış alimi, professor İsmail Ürçelik “Erməni iddiaları və gerçəklər” adlı kitabında göstərir ki, I Dünya müharibəsi ərəfəsində və müharibə illərində ermənilər öz istəklərini gerçəkləşdirmək üçün Rusiyadan dəstək alırdılar. Rusiya vəd etdi ki, yeni bir Ermənistan qurulmağa kömək edəcək. Bundan sonra Türkiyə ərazisində yeni-yeni erməni hərbi alaylarının təşkili prosesi sürətləndi. Bu alaylara erməni liderləri başçılıq edirdilər. Hətta bu erməni hərbi birləşmələrinin fəaliyyətini əlaqələndirmək üçün Tiflisdə Erməni Uluslararası Bürosu yaradıldı.

Bir çox xarici ölkələrdə yaşayan ermənilər hesabına könüllü hərbi birləşmələrin sayının getdikcə çoxaldığını qeyd edən politoloq Zaur Əliyev daha sonra göstərir ki, qısa zamanda Rusiyadan, İrandan, Amerikadan, İngiltərədən, Fransadan, Bolqarıstandan, Rumıniyadan və hətta Buxaradan gələn ermənilər könüllü erməni alaylarına daxil oldular:

–Onlara xüsusi təlimat keçirdilər. Təqribən, 180 minə qədər erməni belə təlim keçmişdi. Təlim keçən erməni casuslarına təxribat işləri ilə məşğul olmaq, adam öldürmək, türk ordusuna arxadan zərbə vurmaq tapşırığı verilmişdi. Bu ordunun qarşısında qoyulmuş həmin vəzifə ermənilərin hökümət tərəfindən köçürülməsini labüd etdi. Təbii ki, erməni silahlı dəstələrinin türklərə vurduğu ağır zərbələr və günahsız türk əhalisinin kütləvi məhv edilməsi, habelə ermənilərin yaşadıqları bu dövlətə xəyanəti Türkiyə dövlətini ciddi qərarlar qəbul etməyə məcbur etdi.

Bir məsələ də maraqlıdır ki, ermənilərin Anadoluda respublika elan edəcəyindən 2 gün qabaq – 1915-ci il aprel ayının 22-də Eçmiədzin katolikosu ABŞ prezidenti Vilsona belə bir teleqram vurmuşdu: “Erməniləri türk fanatizminin özbaşınalığından xilas edin”.

Osmanlı dövləti belə bir vəziyyət qarşısında ilk tədbir olaraq ordudakı erməni əsilli əsgərləri döyüşən hissələrdən çıxarıb, arxa xidmətlərə verdi. Daxili işlər naziri Tələt paşanın imzası ilə 24 aprel 1915-ci ildə bir fərman verildi və dərhal erməni silahlıları haqqında əməliyyat başladıldı. Bu qərara əsasən, erməni komitələrinin başçıları həbs olunmalı və hərbi məhkəmələrə çıxarılmalı idi. Bu dəyişikliklər nəticəsində İstanbulda yaşayan 77 min 735 ermənidən 2 min 435-i həbs olundu, dəstə başçıları hərbi məhkəmələrə çıxarıldı.

24 aprel 1915-ci ildə erməni hərəkatına rəhbərlik edən 600 nəfər erməni yazıçı, şair, jurnalist, siyasətçi, həkim, vəkil, hüquqşünas, müəllim, alim və ruhaninin həbs edilməsi erməni millətçi ekstremistlərini bərk narahat edirdi. Çünki bu şəxslərin uzun müddət həbsdə saxlanılması “erməni məsələsi”nin öz istiqamətini itirməsi və bununla da erməni hərəkatının əsas liderlərinin zərərsizləşdirilməsi ilə nəticələnə bilərdi. Odur ki, həmin tarixdən etibarən ermənilər aprelin 24-nü soyqırımı günü kimi qeyd edirlər.

**Erməniləri türklərə qarşı itaətsizliyə və silahlı mübarizəyə sövq etmiş Fransa və Böyük Britaniyanın Osmanlı imperiyasında “Müharibə əsirləri ilə pis rəftar və ermənilərə qarşı qırğınlara görə” adı altında təhqiqatlar aparmasının həqiqi mahiyyətini dərindən araşdırmış soydaşımız aşağıdakı qənaətə gəlmişdir:**

–I Dünya müharibəsində qalib gəlmiş Antantanın Osmanlı dövlətində, guya, “müharibə əsirləri ilə pis rəftar və ermənilərə qarşı qırğınlar” adı altında əsassız təhqiqatlar aparması prosesində 47 məmur və yüksək rütbəli zabit 1919–1921-ci illərdə Malta adasına sürgün edildi və Böyük Britaniyanın qanunları əsasında onların üzərində mühakimə quruldu. Mühakiməni, əsasən, İngiltərənin baş prokurorluğu aparmış və Maltadakı Türk məhbuslara aşağıdakı ittihamlar irəli sürlmüşdür:

***1. Sülh şərtlərinə tabe olmamaq (Mudros anlaşması bəndlərinə).***

***2. Bu şərtlərin yerinə yetirilməsinə mane olmaq.***

***3. İngilis komandirlərinə və zabitlərinə nalayiq hərəkət etmək.***

***4. Əsirlərə pis münasibət göstərmək.***

***5. Türkiyədə və Transqafqazda ermənilərə və digər əsillərə zülm etmək.***

***6. Talançılıqda iştirak etmək, mülkiyyətə ziyan vurmaq və s.***

***7. Müharibə qanun və qaydalarını başqa hər hansı bir formada pozmaq.***

Malta sürgünündə olanları günahlandırmaq üçün istifadə olunan əsas mənbə, Erməni Patriarxlığının hesabatları idi. Patriarxlıq “100 cinayətkar türk” adlı saxta bir hesabat hazırlamışdı. Başqa hesabatlar da qələmə alınmışdı. İngilislər əvvəl bu hesabatları əsas götürmüşdülər. “Türkiyədə ən çox nifrət edilən ingilis” - deyə səciyyələndirilən ingilis tərcüməçisi Ryan ilə İngiltərənin İzmir baş konsulu Ser H. Lamb da erməni patriarxlığının hesabatlarını təsdiq etmişdilər.

İttihamnamələrə başqa qaynaqları da əlavə etmək tələb olunmuşdu. İttihamçıların düşməni “Səhər” qəzeti və “Renesans” adlı qəzetin hökumət əleyhinə yazılarından, bəzi erməni şahidlərinin ifadələrindən də ittihamnamələrdə istifadə edilmişdi. Fransa və ermənilərə gizlində xidmət edən dövlət qurumları məmurlarının donosları da bir dəlil kimi qəbul olunmuşdu. İngilis zabitlərinin iddiaları da cinayət dəlilləri kimi istifadə edilmişdi.

Konkret 56 nəfərə qarşı “Osmanlı xristianlarına qarşı qırğın törətmək” ittihamı ilə cinayət işi açımışdı. Daha açığı, bu adamların guya erməniləri öldürməsi ittihamı irəli sürülmüşdü. Amma bu iddianı təsdiqləyəcək heç bir cinayət əməli, bir hadisə göstərilməmişdi. Bütün yazılanlar havada qalan, təbliğat xarakteri daşıyan sözlər olduğu üçün məhkəmə tərəfindən ciddi qəbul edilməmişdi.



Xatırladaq ki, 1920-ci ilin avqustunda bağlanmış Sevr müqaviləsində də uydurma “erməni soyqırımı” ilə bağlı bir neçə maddə əksini tapmışdı. Hətta müqavilənin 230-cu maddəsi Osmanlı hökumətindən bir sıra yüksək rütbəli generalın, siyasətçi və ziyalıların müttəfiq dövlətlərin yaratdıqları Malta Tribunalına təhvil verilməsini tələb edirdi.

Maltada əsas mühakimə məhbuslardan Atif bəy, Müəmmər bəy, Zəkəriyyə bəy başda olmaqla və Ziya Gökalp və soydaşımız Əhməd Ağaoğlu da daxil olmaqla 33 nəfər üzərində qurulmuşdu. Ermənilər və onlara havadar olan Fransa və İngiltərə Xarici İşlər Nazirliyi və Kral Prokurorluğu Maltadakı məhbus türklər əleyhinə “hüquqi deyil, siyasi bir qərar verilməsini” istəmişdi. Məqsəd saxtakarlıq edilməsi, məhbusların azad olunmaması və ermənilərin “soyqrıma” məruz qalmasını təsdiq etmək idi. Lakin xarici işlər naziri lord Kerzon və Baş Prokurorluq hüquq çərçivəsi daxilində işlərin aparılacağını bildirmişdi və heç bir təyziqlə istintaqın qərarının dəyişməsinə razı olmamışdı.

Britaniyanın xarici işlər naziri olan Lord Kerzon sonradan çıxışlarının birində deyəcəkdi: “Ermənistan Fransaya verilməlidir, çünki Fransadan başqa heç kim və heç bir formada bu qeyri-adi, iyrənc və çirkin insanlarla iş görmək istəməz. Siz erməniləri 8 yaşında bakirə qız kimi təsəvvür edirsiniz? Siz tamamilə səhv mövqedəsiniz. Ermənilər öz qəddar davranışları ilə nə qədər qaniçən xalq olduqlarını göstərdilər. Dünyanın bu bölgəsində ermənilər, hətta son həftələrdə də bəzi kəslərin sandığı kimi, günahsız quzular kimi davranmamışlardır. Hal-hazırda əlimdə onlar tərəfindən son dərəcə vəhşi və qana susamış tərzdə işlənmiş vəhşiliklərlə bağlı bir çox sənəd var. Unudaq bunu. Şimali Ermənistandakı ermənilərin nə soyqırımı, hətta nə də hücum təhlükəsində olduqlarına inanmıram”.

**Malta prosesində türk məhbuslara qarşı hansısa əsaslı dəlil ortaya qoymağın mümkün olmadığını göstərən tədqiqatçı alim Zaur Əliyev daha sonra bunun əksini sübut edən önəmli sənədlərdən söz açır:**

–Malta məhkəməsində iştirak edən İngiltərənin İstanbuldakı baş komissarı ser Rumbold Lord Kerzona göndərdiyi teleqramda yazırdı: “O, hər bir saxlanılan şəxs barəsində məlumatları xüsusi zərfdə göndərib. Bununla yanaşı, o qeyd edib ki, müttəfiq və neytral dövlətlərlə yanaşı, bir çox ölkələrə istintaqa kömək məqsədi ilə müraciət edlib. Hadisələrin baş verdiyi günlərdə orda olan amerikalı agentlər və hərbiçilərin də qeydləri üçün Vaşinqtona məktub göndərilib, lakin onlar bir çox sənədləri özlərində saxlayırlar. Ən təəccüblüsü isə erməni kilsəsinin bizim müraciətlərimizə laqeyd qalması, onlarda olan materialların verilməyəcəyini deyib və “prokuroluq özü axtarıb tapsın” cavabını verməsidir”.

Əlavə edək ki, 31 mart 1921-ci ildə Lord Kerzon Britaniyanın Vaşinqtondakı səfirinə aşağıdakı məzmunda teleqram göndərmişdir: “Ermənilərin kütləvi qətlində iştirakda ittiham olunan türklər bizim əlimizdədir. Təqsirin sübut edilməsində böyük çətinliklər var. Əgər Birləşmiş Ştatlar hökumətinin əlində məhkəmə istintaqı üçün əhəmiyyətli olan hər hansı sübutlar varsa, xahiş edirəm bizə təcili göndərin”.

Vaşinqtondakı Böyük Britaniya səfiri 1921-ci il iyulun 12-sı Amerikada apardığı araşadırmalardan sonra əldə etdiyi məlumatlarla bağlı Lord Kerzona yazmışdır: “Əlahəzrət, sizin Maltada mühakimə edilən məhbus türklərlə əlaqədar olaraq, iş yoldaşlarımdan biri dünən, 12 iyul günü Amerikan Xarici İşlər Nazirliyinə gedib. Ermənistanda edilən zülmlərlə bağlı Amerika konsullarının hesabatlarının nəzərdən keçirməsinə icazə verilib. Bu hesabatlar Əlahəzrət hökumətinin məqsədinə ən çox yarayacaq deyə incələnmişdir. Təəssüflə çatdırım ki, bu sənədlərin içində mühakimə olunmaq üçün Maltada həbsdə olan türklər əleyhinə dəlil kimi istifadə oluna biləcək heç bir şey yoxdur. Nəzərdən keçirilən hesabatlarda, sözügedən türk əməkdaşlarından yalnız iki nəfərin Sabit Bəy ilə Süleyman Faiq Paşanın adları var, bunlar haqqında yazılanlar da hesabatları qələmə alanların şəxsi düşüncələrini aşmır və cinayət dəlili ola biləcək heç bir konkret göstərilmir.

Onu da əlavə etməklə iftixar edirəm ki, Amerikanın dövlət rəsmiləri çıxış zamanı, verəcəkləri məlumatların heç birinin bir hüquq məhkəməsi qarşısında istifadə edilməməsi arzusunda olmuşlar. Bu baxımdan və Amerika rəsmilərinin əlindəki sənədlərdə heç bir şəkildə türklər əleyhinə dəlil tapa bilmədik və qorxuram ki, bu barədə yenidən Amerika hökumətinə müraciət edilməsindən hər hansı bir şey əldə etmək ümidi yoxdur”.

**Azərbaycanlı alim 32 ay davam edən məhkəmədə, nəhayət, ittiham olunan şəxslərə bəraət verildiyini və erməni əhalisinə qarşı cinayət törədilməməsi qənaətinə gəlindiyini söyləyir:**

–Malta məhkəməsi 29 iyul 1921-ci ildə belə qərar verməyə məcbur olmuşdu:

“Bu günə qədər məhbuslar əleyhinə keçirilmiş ittihamların doğruluğuna şahidlik edən ciddi bir şəxs tapılmamışdır. Müttəhimlərin əleyhinə ittihamların Ədliyyə Məhkəməsi tərəfindən yetərli hüquqi fakt kimi qəbul edilməsi imkansız görünür. İngilis Kral Baş Prokurorluğu “kütləvi öldürmə” iddiası ilə bağlı hüquq məhkəməsində yeni dava açmağa kifayət qədər sübut olmadığına, əldə olan sənəd və məlumatların ittihamlar üçün hüquq məhkəməsində sübut dəyəri olmadığını, ona görə də kimsənin bir hüquq məhkəməsi qarşısında cəzalandırılmasının mümkün olmayacağını qərara alır”.

Maltaya sürgün edilib ittiham edilənləri, nəhayət, istiqlal savaşında qələbələr qazanmış böyük Mustafa Kamal Atatürk xilas etmişdir. Sürgün illəri onlar üçün acıdan-acı bir xatirə olaraq qalmışır. Bir-iki il ailələrindən ayrı, dövlət işlərindən uzaq, şəxsi azadlıqdan məhrum olaraq keçirmişlər, olmazın çətinlik çəkmişlər. Onlar sonra İngiltərə hökumətinə qarşı təzminat davası açsalar da, nəticə əldə etməmişlər.

Son olaraq bildirək ki, erməniləri bir zaman ayaqda saxlayan kilsə idisə, 1915-ci ildən sonra onlar bu “soyqırımı”nı uydurdular və özlərinə ikinci bir “zəmin” yaratdılar. Erməni ideoloqları bu gün də belə düşünürlər ki, əgər “soyqırımı” ideologiyası aradan götürülsə, o zaman Ermənistan dövləti də olmaz. “Soyqırımı” bütün erməniləri birləşdirən bir ideologiya halına gəlmişdir. Ölkə daxilində didişən qüvvələr, düşmənçilik edənlər bu məsələdə birləşirlər. “Soyqırımı” onların alver predmetinə çevrilmişdir.

Beləliklə, “soyqırımı əfsanəsi” ermənilərin erməni olmalarının əsas dəlili sayılmaqla, erməniləri bir arada saxlamaq üçün yeganə vasitədir. Erməni başbilənlər gözəl başa düşürlər ki, Ermənistanda yaşayan bir ovuc erməni ümumi işin davamçısı ola bilməz. Bu səbəbdən də diasporda erməniləri “ortaq əzablar” və “ortaq uğurlar” xülyası ilə birləşdirməyə çalışaraq, “soyqırım əfsanəsindən” inadla istifadə edirlər.

***Hazırladı:***
***Tahir AYDINOĞLU, “Xalq qəzeti”***